**İstifadəsi üzrə təlimat**
KOLDİSEPT nanoSİLVER
boğaz üçün sprey

**Tibbi vasitə.**

**Dərman vasitəsi deyildir**.

**Təsiredici maddələr:** Təmizlənmiş su (Purified water<90%), qliserin (Glycerin<5%), gümüş nanokolloidi (Nanocolloid silver solution<5%), sorbitol (Sorbitol 3%-5%), natrium benzoat (Sodium benzoate<1%), kalium dihidrofosfat (Potassium dihydrogen phosphate<0,5%), kalium xlorid (Potassium chloride<0,5%), natrium xlorid (Sodium chloride<0,5%), kalsium xlorid heksahidrat (Calcium chloride hexahydrate<0,5%), maqnezium xlorid heksahidrat (Magnesium chloride hexahydrate<0,5%), İrlandiya mamırının ekstraktı (Carrageen liquid extract 1%-5%), istiotlu nanə yağı (Peppermint oil<1%), limon turşusu (Citric acid<1%).

**İstifadəsinə göstərişlər**
Boğaz üçün sprey şəklində istifadəyə buraxılan Koldisept nanoSilver tibbi vasitə – xüsusilə, aşağıda göstərilən vəziyyətlərdə bakterial və virus infeksiyaları tərəfindən törədilən iltihabların dəstəkləyici müalicəsi üçün nəzərdə tutulmuşdur:
- badamcıqların iltihabı;
- ağız boşluğunun və boğaz nahiyəsinin selikli qişalarının iltihabı;
- badamcıqların çıxarılması əməliyyatından sonrakı vəziyyətlər.

Ağız boşluğunda xoraların, o cümlədən, şəkərli diabetdən əziyyət çəkən pasiyentlərin ağız boşluğunda əmələ gələn xoraların müalicəsi üçün istifadə edilə bilər.
Koldisept nanoSilver boğaz üçün sprey boğazın selikli qişasının üzərində qoruyucu təbəqə əmələ gətirir və selikli qişanı zərərli fiziki, kimyəvi və bioloji faktorların təsirindən əlavə olaraq qoruyur.
Koldisept nanoSilver boğaz üçün sprey qurumuş selikli qişanın nəmləndirilməsi hesabına narahatlıq hissinin aradan qalxmasına səbəb olur və bununla da iltihab simptomlarını, məsələn ağrını və yanğı hissini əhəmiyyətli dərəcədə azaldır. Tibbi vasitə, ağız boşluğunun və boğaz nahiyəsinin selikli qişalarını bakteriyaların və virusların təsirindən qoruyan gel təbəqəsinin əmələ gəlməsinə səbəb olur və iltihab meydana çıxdığı halda, selikli qişaların regenerasiyasını dəstəkləyir.
Tibbi vasitənin tərkibinə daxil olan natrium, kalium, kalsium və maqnezium tərkibli mineral duzların sulu məhlulu boğaz nahiyəsinin və burun boşluğunun qıcıqlanmış selikli qişalarının ödemini azaldır və onların regenerasiyasını dəstəkləyir.
Tibbi vasitənin tərkibinə bakteriyaların inkişafını məhdudlaşdıran gümüş nanohissəcikləri daxildir. İstiotlu nanə yağı burun keçəcəklərinin təmizlənməsinə, öskürəyin yumşalmasına səbəb olur və tənəffüs zamanı rahatlığı yüksəldir.
*Tibbi vasitənin istifadəsi üçün şərtlər*: fərdi tələbatlara müvafiq sistematik istifadə üçün nəzərdə tutulmuşdur.
*Texniki və funksional xarakteristikaları*

| *Parametrin adı* | *Təsviri* |
|---|---|
| *Tibbi vasitənin təsviri və quruluşu* | Dozalayıcı-pompa və applikator ilə təchiz olunmuş flakonda maye. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır. |
| *Dolma həcmi* | 20 ml (200 doza; 0,1 ml/dozada). |
| *Möhtəviyyatın xarakteristikası* | İçərisində gözlə görünən həll olunmayan hissəciklər aşkar edilməyən, ağ rəngdən yüngül sarımtıla qədər rəngli, şəffaf və ya bir qədər bulanıq homogen maye. |

**İstifadə qaydası və dozası**
*Dozalanma rejimi*
İstifadə müddəti 30 gündən artıq olmamaqla, fasiləsiz istifadə üçün nəzərdə tutulmuşdur.
*İstifadə qaydası*
1. İlk dəfə istifadə etməzdən əvvəl dozalayıcı-pompanı sınamaq məqsədi ilə bir neçə dəfə sıxmaq lazımdır.
2. Applikator ağız boşluğuna boğaz istiqamətində mümkün qədər dərin daxil edilməlidir.
3. 3-4 doza (dozalayıcı-pompanın sıxılması) istifadə edilməlidir.

**Əks göstərişlər**
- Komponentlərə qarşı fərdi dözümsüzlük;
- metallik gümüşə qarşı allergiya.

**Tibbi vasitənin istifadəsi ilə əlaqəli əlavə effektlər, digər tibbi vasitələrlə və ya müxtəlif dərman preparatları ilə birlikdə istifadəsi**
Əlavə effektlər barədə heç bir məlumat yoxdur.
Yüksək həssaslığa malik pasiyentlərdə allergiya simptomlarının meydana çıxması istisna edilmir. Allergiya simptomları meydana çıxdığı halda, tibbi vasitənin istifadəsini dayandırmaq tələb olunur.
İstifadəsi üzrə təlimatda qeyd olunmayan bütün əlavə effektlər, arzuolunmayan reaksiyalar, dərman vasitələrinin bir-biri ilə qarşılıqlı təsir xüsusiyyətləri, göstərilən tibbi vasitənin istifadəsi zamanı pasiyentin həyatı və sağlamlığı üçün təhlükəli olan faktlar və vəziyyətlər barədə pasiyentin müalicə olunduğu ölkənin səlahiyyətli orqanına məlumat verilməlidir.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Tibbi vasitənin gözlərin selikli qişasına təsadüfən düşməsindən çəkinmək lazımdır.
Narahatlığa səbəb ola bilən istənilən simptomlar meydana çıxdığı halda, tibbi vasitənin istifadəsi dayandırılmalıdır.
Hamilə qadınlara və 6 yaşa qədər uşaqlara tibbi vasitəni yalnız həkim nəzarəti altında istifadə etmək tövsiyə olunur.

**Buraxılış forması**
20 ml məhlul, boğaz üçün sprey dozalayıcı-pompa və applikator ilə təchiz olunmuş plastik flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25° C-dən yuxarı olmayan temperaturda, quru və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**İstehsalçı**
ARKONA Qjeqoja Kalbarçik Stomatoloji Farmakologiya Laboratoriyası, Nasutuv 99C, 21-025 Nemtse, Polşa.

**Qablaşmanın üzərində qeyd olunan simvolların təsviri**

| | |
|---|---|
| ⌛ | Yararlılıq müddəti: |

| | |
|---|---|
| LOT | Seriyası: |
| i | İstifadəsi üzrə təlimatla tanış olmaq lazımdır |
| CE | Avropa standartlarına uyğunluq işarəsi |